# MasterLife® WP 1200

**Beton və xərclər üçün kristallik effektli su keçirimsizliyi təmin edən beton əlavəsi**

## MATERİALIN TƏQDİMATI

**MasterLife® WP 1200** betondakı su keçiriciliyini azaldan və maye olaraq kapilyarşəkilli udulmasının qarşısını alan, havacılbedici beton əlavəsidir. **MasterLife® WP 1200** çeşidli özəl məhsullarla birgə işlədilə bilər**.** Bu aktiv kimyəvi maddələr, təzə betondakı su və sement hidrotasiyası nəticəsində ortaya çıxan yan məhsullar ilə reaksiyaya girərək betonun məsamə və boşluqlarında həll olunmayan bir kristal quruluşu meydana gətirir. Bu kristal quruluş sayəsində betonun su keçirməsi azalır. **MasterLife® WP 1200**, betonda meydana gələ biləcək 0.4 mm-dən az çatları özbaşına yaxşılaşdırma və təmir etmə xüsusiyyətinə malikdir.

## TƏTBİQ SAHƏSİ

**MasterLife® WP 1200** təməllər, tunellər, zirzəmi kimi davamlı və ya aralıqlı olaraq su ilə təmas halında olan bütün struktur betonlarda istifadə edilə bilər.
**MasterLife® WP 1200** eyni zamanda sement xərcləri və suvaqlar üçün də kristal su keçirimsizlik qatqısı olaraq istifadə edilə bilər.

Ümumiyyətlə, tətbiq sahələri aşağıdakılardır:

- Əsaslar və zirzəmilər;
- Kanalizasiya və su təmizləyici qurğular;
- Anbarlar, kanallar, tunellər, limanlar;
- Tunel və metro sistemləri;
- Su ehtiyatları;
- Beton borular;
- Çox-mərtəbəli avtomobil parkları;
- Üzgüçülük hovuzları;
- Dalğa divarları & dalğa qıranlar bəndlərdə.

## ÜSTÜNLÜKLƏRİ

- Betonun keçirimliliyini azaldır;
- Toksiki deyildir;
- Betonun daxili quruluşuna daxil olur;
- Su və digər mayelərin nüfuz etməsini azaldır;
- 0.4 mm-dən az çatları özbaşına yaxşılaşdırma və təmir etmə xüsusiyyətinə malikdir;
- Müsbət və mənfi hidrostatik təzyiqə qarşı davamlıdır;
- Kanalizasiya və sənaye tullantılarından qorunma təmin edir;
- Betona qarışdırma əsnasında əlavə olunur.

## TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Rəngi | Sarı |
| Sıxlığı | 1,09-1,15kq/litr |
| Tərkibdə xlorun miqdarı, % (EN 480-10) | ‹ 0,1 |
| Korroziya təsiri | yoxdur |

*Qeyd olunmuş göstəricilər +20 °C və 50% nisbi nəmlik muhitində qəbul olunmuşdur.*

## UYĞUNLAŞMA

**MasterLife® WP 1200** ASTM və EN standartlarına müvafiq olaraq istehsal edilmiş portland sementləri ilə istifadə edilə bilər.
**MasterLife® WP 1200**, aşağı su-sement nisbətində maksimum işlənəbilirliyini təmin etmək üçün **MasterGlenium®** seriyasi kimi yüksək performanslı suazaldıcı qatqı maddələri birlikdə istifadə edilməsi tövsiyyə olunur.
Mikrosilikat, ucan kül, şlak və digər bu kimi mineral əlavələrlə birlikdə istifadə etmək olar.

## TƏTBİQ QAYDASI

**MasterLife® WP 1200** qatqısı, sement və ya sementə bənzər digər materiallarda olduğu kimi beton istehsalı müəssisəsində dozalanır. Məhsul, mərkəzi mikserin daxilinə və ya beton qarışdırıcısına əlavə olunaraq istifadə edilə bilər. **MasterLife® WP 1200** miksərə əlavə edildikdən sonra yüksək sürətlə 5 dəqiqə yaxşı bir şəkildə qarışdırdığından əmin olun. **MasterLife® WP 1200** qatqısının hər bir kiloqramı üçün nəzərdə tutulan su/sement nisbətinin saxlanması məqsədilə qarışıq suyun tərkibi 0,8 kq azaldılmalıdır.

# MasterLife® WP 1200

## Beton və xərclər üçün kristallik effektli su keçirimsizliyi təmin edən beton əlavəsi

### SƏRFİYYAT

Sement ağırlığının 1-2,5% qədər istifadə edilə bilər. Çox tətbiq üçün təklif edilən ən uyğun miqdar sement ağırlığının 2%-dir. Adətən istifadə dərəcəsi 1 kubmetr beton üçün 6-7 kq-dır. İşlədilmə miqdarı, betonun sinfi və xüsusiyyətlərindən asılı olaraq, qabaqcadan laboratoriya tədqiqatları ilə təyin edilməlidir. Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan MMC-**nin texniki xidmətinə müraciət olunmalıdır.

### AŞAĞIDAKILARA DİQQƏT YETİRİLMƏLİ

- Su/sement miqdarı 0.5-dən daha az olduğuna əmin olun;
- Minimum su/sement nisbəti üçün **MasterGlenium®** və ya **MasterRheo-build®** beton əlavəsində istifadə edin;
- Betonu sürətlə tökün və yaxşı sıxışdırın;
- **MasterKure®** kürləmə materialı ilə tam kürlənmə olduğuna əmin olun;
- Keçirimlilik riskini minimuma endirmek üçün betonun xaricinə **MasterSeal® 754** kimi su izolyasiya membranlarının istifadəsi tövsiyə olunur.

### PERFORMANS XÜSUSİYYƏTLƏRİ

**Priz müddəti:**

**MasterLife® WP 1200** qatqısının, təklif edilən doza sərhədləri daxilində beton priz müddətinə təsiri çox azdır və ya yox dərəcəsindədir. Ancaq başqa qatqıların əlavə olunması və ya başqa komponentlərin betondan istifadə edildiyi hallarda bunun əvvəldən test edilməsi tələb olunur.

**Keçirimlilik:**

**MasterLife® WP 1200** beton məsamələrində suda həll olunmayan kristal hidrotasiya məhsullarını meydana gətirən kristalizasiya olunmuş qarışıqdır. Bu kristallar beton içərisində məsamələr və kapilyar çatlamaları dolduraraq, betonların keçiriciliyini və kapillyarların keçirilməsini azaldır.

### QABLAŞDIRMA

30 kg bidon.
210 lt çəllək.

### SAXLAMA MÜDDƏTİ

Normal saxlama şəraitində, istehsal edildiyi gündən 12 ay təşkil edir. Acılmış qab-laşdırmanın qapağı yenidən kip bağlanarsa, onda materialı bütün saxlama müddətində istifadə etmək olar.

### SAXLAMA QAYDASI

Orijinal qablaşdırmada, +5°C-dən yuxarı temperaturda saxlanılmalıdır.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az